**2026-cı ilin yanvar ayı ərzində müayinə və texniki xidmət məlumatları üzrə keçirilmiş monitorinqin nəticələrinə dair məlumat**

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin əməkdaşları tərəfindən 2026-cı ilin 5 yanvar tarixindən 30 yanvar tarixinədək müddətdə "Azəriqaz" İstehsalat Birliyi (bundan sonra – qaz paylayıcı sistem operatoru) tərəfindən qaz qurğularında və qaz xətlərində müayinənin keçirilməsinə Reyestrə daxil edilmiş məlumatların toplanılması, qiymətləndirilməsi, təhlili və yoxlanılması üsulu ilə monitorinq keçirilmişdir.

Monitorinq nəticəsində qaz paylayıcı sistem operatoru tərəfindən qaz qurğularında və qaz xətlərində müayinənin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsi ilə müəyyən edilmiş qaydada aparılmadığı, eyni zamanda texniki xidmətin Qanunun 19-cu maddəsi ilə müəyyən edilmiş qaydada həyata keçirilmədiyi müəyyən olunmuşdur. Aşkar olunmuş pozuntuların aradan qaldırılması məqsədilə qaz paylayıcı sistem operatoruna icrası məcburi olan göstəriş verilmişdir.